**Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**"Maliyyə və audit" kafedrasının**
**müdiri: Ə.Ə.Ələkbərov, i.e.d., prof.**
**_15 sentyabr 2025**

**"Maliyyə aktivlərinin qiymətləndirilməsi" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** *00903*
**Fənnin öyrənilməsinin zəruriliyi:** *məcburi/seçmə*
**Tədris ili:** *2025/2026*
**Tədris semestri:** *payız*
**Kursun səviyyəsi:** *bakalavr*
**Tədris forması:** *əyani*
**Fakültə:** *"Maliyyə və Mühasibat"*
**Qrup:** ___________
**Tədris yükü:** *60 saat (30/30)*
**Kredit sayı:** *4*

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** G.Q.Tanrıverdiyeva
**Kafedra:** *"Maliyyə və Mühasibat"*
**E-mail ünvanı:** muhasibat.ucot@gmail.com
**İş telefonu:** *+99412492 4004*

## III. Fənnin təsviri

Maliyyə aktivlərinin qiymətləndirilməsi Peşəkar Mühasiblərin Sertifikatlaşdırma Proqramının Fundamental səviyyəsinə daxil edilmiş fənnlərdən biridir.Fənnin tədrisinin zəruriliyi tələbələrə mövcud normativ-hüquqi bazaya, ümumqəbulolunmuş mühasibat uçotu prinsiplərinə (GAAP-ra) və Beynəlxalq standartlara uyğun maliyyə uçotunun aparılması, maliyyə hesabatının tərtib və təqdim edilməsinin konseptual əsaslarını və praktiki aspektlərini öyrətməklə bağlıdır. Maliyyə aktivlərinin uçotu kommersiya təşkilatlarının fəaliyyəti prosesində baş verən əməliyyatlar və hadisələr haqqında məlumatların qeydiyyatı, qiymətləndirilməsi, təsnifatı və ümumiləşdirilməsinin prinsiplərini,qaydalarını və prosedurlarını əhatə edir.Maliyyə aktivlərinin uçotu maliyyə informasiyasının formalaşdırılmasının başlanğıc mərhələsidir.Bu mərhələdə müxtəlif səviyyəli registrlərin və müxtəlif qiymətləndirilmə bazalarının tətbiqi yolu ilə maliyyə informasiyasına çevrilir.Sonuncu mərhələdə maliyyə aktivlərinin uçotu informasiyasının müəyyən edilmiş prinsiplərə və qaydalara uyğun ümumiləşdirilməsi əsasında maliyyə hesabatı hazırlanır və istifadəçilərə təqdim edilir. Maliyyə aktivlərinin uçotu informasiyasının məzmununa, keyfiyyəti və faydalılığına olan tələblər konverqensiya əsasaında maliyyə hesabatının hazırlanması və təqdim edilməsi üzrə Konseptual sənədlərdə və müvafiqBeynəlxalq Standartlarda təsbit edilir.

## IV. Fənnin məqsədi və vəzifələri

*Fənnin tədrisinin məqsədi* – hesabat verən təşkilatın maliyyə vəziyyətini, fəaliyyətiunin nəticələrini, onun pul törətmə qabiliyyətini təhlil etmək və qiymətləndirmək üşün zəruri olan informasiyanın formalaıdırılmasının nəzəri, metodoloji və empirik əsaslarını, metodlarını, həmçinin həmin

informasiyadan istifadə etməklə maliyyə hesabatını tərtib və təqdim etmənin qaydalarını tələbələrə öyrətməkdir.

*Fənnin tədrisi qarşısında duran vəzifələr*:

- Maliyyə aktivlərinin mahiyyəti, məqsədi və təyinatı haqqında tələbələrdə bilik formalaşdırmaq;
- Maliyyə aktivlərinin uçotu və hesabatı sistemində isifadə edilən terminlərin və anlayışların sintaksisini, semantikası və praqmatikasını başa düşməkdə və interpretasiya etməkdə tələbələrə köməklik göstərmək;
- Əməliyyatlar və hadisələr barədə informasiya formalaşdırmanın metodoloji ünsürləri olan qiymətləndirmə, tanınm və tanınmanin dayandırılması və tətbiqi qaydalarını mənimsəməkdə tələbələrə kömək etmək;
- İlkin məlumatların müxtəlif səviyyəli və təyinatlı registrlərdə qeydiyyatı və qruplaşdırılması nəticəsində alınan informasiyadan istifadə etməklə sınaq balansının hazırlanması və düzəlişlərin aparılması qaydalarını öyrətmək;
- Maliyyə aktivlərinin qiymətləndirilməsi məlumatları və informasiyası bazasında Konseptual əsasların və müvafiq Beynəlxalq standartların təsbitlərinə uyğun maliyyə hesabatının hazırlanması və təqdim edilməsi qaydalarını tələbələrə izah etmək və öyrətmək,

**V. Fənnin tədrisi nəticəsində tələbələr aşağıdakıları:**

**Bilməlidirlər:**

- Maliyyə aktivlərinin qiymətləndirilməsinin məqsədini, funksiyalarını, onun qarşısında qoyulan tələbləri;
- Maliyyə aktivlərinin qiymətləndirilməsinin aparılması və maliyyə hesabatının hazırlanmasının konseptual prinsiplərini və normativ-hüquqi bazasını;
- Maliyyə aktivlərinin qiymətləndirilməsinin aparılması ilə maliyyə hesabatının tərtib edilməsi arasındakı nəzəri-metodoloji əlaqəvə asılılığı;
- Maliyyə aktivlərinin qiymətləndirilməsi sistemində tətbiq olunan terminlərin və anlayışların mahiyyətini, praqmatik əhəmiyyətini;
- Maliyyə aktivlərinin qiymətləndirilməsi çərçivəsində formalaşdırılan informasiyanın keyfiyyət atributlarını;
- Maliyyə aktivlərinin qiymətləndirilməsi elementləri və obyektlərinin Konseptual əsaslar və müvafiq Beynəlxalq standartlarla təsbit olunmuş tanınma kriteriyalarını, təsnifatını, ilkin və sonrakı qiymətləndirilmə qaydalarını və uçot modellərini;
- Kommersiya əməliyyatları və hadisələri barədə ilkin sənədlərdə əks etdirilmiş və daha sonra qeydiyyat registrlərində işlənilmiş və ümumiləşdirilmiş məlumatlar/informasiya əsasaında müvafiq standartların tələblərinə uyğun maliyyə hesabatının hazırlanması və təqdim edilməsi qaydalarını.

**Bacarmalıdırlar**:

*Elementlərin tanınması anlayışı, tanınmanın kriteriyaları və tanınmanın dayandırılmasının qanunvericilik bazası ilə müəyyən edilmiş qaydalatrını tətbiq etməyi;

*Qiymətləndirilmə bazası haqqında anlayış, qiymətləndirilmə bazaları qruplaşdırılması və ümumiləşdirilməsini;

- Maliyyə alətləri, maliyyə aktivləri və maliyyə öhdəlikləri kapital elementini izah etməyi və qiymətləndirməyi;
- Maliyyə hesabatında informasiyanın təqdim edilməsi və açıqlanmasını;
- Konseptual əsasların və müvafiq Beynəlxalq standartların təsbitlərinə uyğun olaraq hesabat verən təşkilatın maliyyə hesabatını tərtib və təqdim edilmə qaydalarını tətbiq etməyi;
- Maliyyə aktivlərinin qiymətləndirilməsi informasiyası bazasında maliyyə əmsallarını hesablamağı və interpretasiya etməyi.

**VI. Fənnin mühazirə mövzuları**

| Sıra | Mövzuların adları | Mühazirə dərsləri | Seminar dərsləri |
|---|---|---|---|
| 1 | Maliyyə uçotu və hesabatının elementləri, onların tanınması, və qiymətləndirilmə bazası | 4 | 4 |
| 2 | MHBS 9 “Maliyyə alətləri”tanınma və tanınmanın dayandırılması | 2 | 2 |
| 3 | MHBS 9 “MALİYYƏ ALƏTLƏRİ “ təqdimatı və tətbiq sahəsi | 2 | 2 |
| 4 | Maliyyə aktivlərinin təsnifatı | 2 | 2 |
| 5 | Maliyyə öhdəliklərinin təsnifatı | 2 | 2 |
| 6 | MUBS 36-AKTİVLƏRİN QİYMƏTDƏN DÜŞMƏSİ | 2 | 2 |
| 7 | Aktivin qiymətdəndüşmənin müəyyən olunması prosedurları | 2 | 2 |
| 8 | MUBS21-XARİCİ VALYUTA MƏZƏNNƏLƏRİNDƏ DƏYİŞİKLİKLƏRİN TƏSİRİ” | 2 | 2 |
| 9 | VALYUTA MƏZƏNNƏLƏRİ İLƏ BAĞLI ƏMƏLİYYATLARIN UÇOTU | 2 | 2 |
| 10 | QİYMƏTLİ KAĞIZLARIN DƏYƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ | 4 | 4 |
| 11 | QİYMƏTLİ KAĞIZLARIN EMİSSİYASI | 2 | 2 |
| 12 | PUL VƏSAİTLƏRİNİN TƏHLİLİ VƏ MALİYYƏ PLANLAŞMASI | 4 | 4 |
|  | **CƏMİ** | **30** | **30** |

**VII. Prerekvizitlər**

Maliyyə hesabatlılığı

**VIII. Fənnin tədris metodologiyası**

Fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin keçirilməsi, komanda ya da kiçik qruplar şəklində praktiki maliyyə qərarlarınınqəbulu və icrası üzrə xüsusi misallar, nümunələr (keys-stadilər) nəzərdən keçiriləcək, onların birgə təhlili aparılacaq,açıq və qapalı test tapşırıqları öyrəniləcək, testlərin cavabları müzakirə olunacaqvə qiymətləndiriləcəkdir.

**IX. Əsas dərslik və ədəbiyyat**


1.Mühasibat uçotu haqqında AR Qanunu,Bakı,2004;

2.“Mühasibat uçotu haqqında” AR Qanununda dəyişikliklər edilməsi barədə AR Qanunu, Bakı,2018;

3. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən Mühasibat uçotunun aparılması Qydaları-AR Maliyyə Nazirliyi tərəfindən 30 yanvar 2017 –ci idə təsdiq edilmişdir: *http://85.132.71.30/framework/34909;framework /31986*

4.Mühasibat uçotu suyektləri üçün Hesablar Planı – AR Maliyyə Nazirliyi tərəfindən 30 yanvar 2017 –ci idə təsdiq edilmişdir: *http://85.132.71.30/framework/34909*;

5.Maliyyə hesabatlarının Beynəlalq Standartlarına, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarına və İctimai Sektor üşün Mühasibat Uçotunun Beynəlalq Standartlarına uyğun olaraq memorial order forması əsasında sintetik uçotun aparılması qaydası - AR Maliyyə Nazirliyi tərəfindən 18 yanvar 2016 –cı idə təsdiq edilmişdir: *e-qanun.az / framework /31986* ;

6.Maliyyə hesabatının təqdim edilməsinin Konseptual əsasları- MHBS Şurası tərəfindən 2018 –ci ildə dərc edilmişdir.: *https: //www.minfin.ru/ru/ document/;*

7. Maliyyə Hesabatının Beynəlxalq Standartları:http:// maliyye. gov.az/static/141/ maliyye –hesabatlarinin-beynelxalq-standartlari;

8. Devid Alesander, Anne Britton, Ann Yorissen.Malyyə Hesabatının Beynəlxalq Standartları: nəzəriyyədən praktikaya.V.M.Quliyevin elmi redaktorluğu altında rus dilindən tərcümə.Bakı,2010- 762 səh.;

9.Maliiyə uçotu:Fundamental səviyyə -2-ci fənn.Dərs vəsaiti,Bakı-2013, 744 səh.

10.Beynəlalq Maliyyə Hesabatı Standartları üzrə Milli Diplom.Birinci nəşr-GRBS.Bakı, 2010-665 səh.;

11.Səbzəliyev S.Maliyyə hesabatı.Dərs vəsaiti,Bakı: “İqtisad Universiteti” Nəşriyyatı – 2018. – 312 səh.;

12. V.Quliyev, R.Fətullayev, A.Kərimov Beynəlxalq uçot və hesabata giriş ( GAAP və İFRS əsasında). Bakı, 2012 -279 səh.;

13. Abbasov Q.Ə. Sıfırdan başlayan mühasibat (maliyyə) uçotu – Bakı, - “Təknur” – 2013, 552 səh.;


**X. Fənnin mühazirə mətnləri**

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.vu.aseu.az) yerləşdirilir.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | .Maliyyə uçotu və hesabatının elementləri, onların tanınması, və qiymətləndirilmə bazası | 1.1. Maliyyə uçotu və hesabatı elementləri haqqında anlayış, onların tərifi;<br>1.2. Maliyyə vəziyyəti haqqında hesabatın elementləri;<br>1.3. Fəaliyyətin maliyyə nəticələrinə aid olan elementlər;<br>1.4. Elementlərin tanınması anlayışı, tanınmanın kriteriyaları və tanınmanın dayandırılması;<br>1.5. Qiymətləndirilmə bazası haqqında anlayış;<br>1.6. Qiymətləndirilmə bazaları;<br>1.7. Cari dəyər əsasında qiymətləndirimənin bazaları:<br>-ədalətli dəyər;<br>-istifadənin qiymətliliyi (aktivlər üçün);<br>-icraetmənin dəyəri (öhdəliklər üçün);<br>-əvəzetmənin cari dəyəri. | **Ədəb. 6:** Fəsil 1;<br>**Ədəb.7:** (IAS) 8;<br>**Ədəb.8:** Fəsil 1;<br>**Ədəb.9:** Bölmə A , Bölmə H.;<br>**Ədəb.10:** səh. 3-59;<br>**Ədəb. 11:** Fəsil 2**;**<br>**Ədəb. 12:** səh. 11-26;<br>**Ədəb. 13:** səh.5. |
| 2 | MHBS 9 "Maliyyə alətləri"tanınma və tanınmanın dayandırılması | 2.1.Maliyyə alətləri, maliyyə aktivləri və maliyyə öhdəlikləri;<br>2.2Maliyyə öhdəliyi və ya kapital elementi<br>2.3. Qarışıq maliyyə alətləri<br>2.4Xəzinə səhmləri,faiz, dividendlər,<br>2.5 Zərərlər/itkilər və qazanclar<br>2.6 Maliyyə hesabatında informasiyanın təqdim edilməsi və açıqlanması | **Ədəb. 6:** Fəsil 1,Fəsil 2;<br>**Ədəb.8:** Fəsil 1,Fəsil 8;<br>**Ədəb.9**: Bölmə B.;<br>**Ədəb. 11:** Fəsil 2. |
| 3 | MHBS 9 "MALİYYƏ ALƏTLƏRİ " təqdimatı və tətbiq sahəsi | 1.Maliyyə alətlərinin tanınması, ilkin qymətndirilməsi qaydaları və uçotu<br>2. . Maliyyə alətlərinin sonrakı qiymətləndirilməsi və uçotu qaydaları<br>3. Maliyyə alətlərinin yenidən təsnifatı<br>4.Maliyyə alətlərinin tanınmasının dayandırılması və onun nəticələrinin uçotu | **Ədəb 6:** Fəsil 4, Fəsil 5, Fəsil 6;<br>**Ədəb9:** Bölmə, A, Fəsil-A3.<br>**Ədəb. 12:** səh. 11-26. |

| | | | |
|---|---|---|---|
| | | | |
| **4** | Maliyyə aktivlərinin təsnifatı | 1. Maliyyə alətlərinin mahiyyəti, növləri və ilkin uçotu qaydası;<br>2. Maliyyə aktivlərinin təsnifatı və uçotu;<br>3. Maliyyə aktivinin qiymətləndirilməsi və ölçülməsi<br>4. Törəmə maliyyə alətləri,onların növləri və uçotu qaydası | **Ədəb. 4;**<br>**Ədəb.5;**<br>**Ədəb 9:**<br>Bölmə A., Fəsil-A3.;<br>**Ədəb. 12:**<br>səh.<br>77-94;<br>**Ədəb. 13:**<br>səh.<br>43-110. |
| **5** | Maliyyə öhdəliklərinin təsnifatı | 1.Maliyyə öhdəliklərinin təsnifatı və uçotu;<br>2. Maliyyə öhdəliklərinininin qiymətləndirilməsi<br>3.Maliyyə öhdəliklərinin ilkin ölçülməsi və sonrakı ölçülməsi | **Ədəb.4;**<br>**Ədəb.5;**<br>**Ədəb 9:** Bölmə C. , Fəsil-C2;<br>**Ədəb.12:** səh.119-134<br>**Ədəb. 13:** səh.113-118. |
| **6** | MUBS 36"AKTİVLƏRİN QİYMƏTDƏN DÜŞMƏSİ" | 1.Aktivlərin qiymətdən düşməsi anlayışı, qiymətdəndüşmənin müəyyən edilməsi üçün aktivin yaxud törədici vahidin identifikasiyası;<br>2.Qiymətdən düşmənin müəyyən edilməsi ,bərpa edilə bilən dəyərin ölçülməsi,ləğvetmə xərcləri çıxılmaqla olan ədalətli dəyər,istifadə dəyəri.<br>3.Qiymətdən düşmədən itkinin tanınması və qiymətləndərilməsi<br>4.Pul vəsaitləri yaradan vahidlər və qudvil | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>(İAS) 16; (İAS) 40; (İAS) 41;<br>**Ədəb.8:**<br>Fəsil 12;<br>**Ədəb 9:**<br>Bölmə D., Fəsil-D 04, D 05;<br>**Ədəb.12:** səh.135-146. |
| | | | |
| **7** | Aktivin qiymətdəndüşmənin müəyyən olunması prosedurları | 1.Qiymətdəndüşmənin kənar və daxili əlamətləri, müxtəlif uzunmüddətli aktivlər üzrə onun müəyyən olunması prosedurları;<br>2. Aktivin yaxud törədici vahidin qiymətdəndüşməsinin müəyyən edilməsi | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>(İAS) 38;<br>**Ədəb.8:**<br>Fəsil 13;<br>**Ədəb 9:**<br>Bölmə D., Fəsil-D 06;<br>**Ədəb.10:** səh.143-159:<br>**Ədəb.12:** səh.147-154. |

| | | | |
|---|---|---|---|
| | | qaydası;<br>3. Aktivin yaxud törədici vahidin qiymətdəndüşməsindən yaranan zərərin tanınması və qiymətləndirilməsi;<br>4 Qiymətdəndüşmədən yaranmış zərərin bölüşdürülməsi qaydası;<br>5 Qiymətdəndüşmədən yaranmış zərərin bərpa olunması;<br>6.Maliyyə hesabatında informasiyanın açıqlanması. | |
| **8** | MUBS21"XARİCİ VALYUTA MƏZƏNNƏLƏRİNDƏ DƏYİŞİKLİKLƏRİN TƏSİRİ" | 1.Standartın məqsədi və tətbiq sahəsi ,əsas anlayışlar<br>2.Valyuta məzənnəsinin mahiyyəti<br>3.Vaıyuta növlərinin uçotunun aparılması qaydası<br>4.Vaıyuta məzənnəsindən yaranan gəlir və xərclərin uçotu və hesabatda əks etdirilməsi | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>(İAS) 32, (İFRS) 7, (İFRS) 9 ;<br>**Ədəb.8:**<br>Fəsil 16;<br>**Ədəb.10:** səh.233-275;<br>**Ədəb. 12:** səh.181-197;<br>**Ədəb.13:** səh.190-198: |
| **9** | VALYUTA MƏZƏNNƏLƏRİ İLƏ BAĞLI ƏMƏLİYYATLARIN UÇOTU | **1.** İlkin tanınma və ilkin tanınmadan sonrakı hesabat dövrlərində valyuta əməliyyatlarının uçotu.<br>2.Məzənnə fərqlərinin dəyişməsindən yarananfərqlərin hesabatda tanınması<br>3.Əməliyyat valyutasında baş verən dəyişikliklər,məzənnə fərqlərinin vergi nəticələrinə təsiri | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>(İAS) 2, (İFRS) 5;<br>**Ədəb.8:**<br>Fəsil 15;<br>**Ədəb 9:**<br>Bölmə D., Fəsil-D 03;<br>**Ədəb.10:** səh.159-183:<br>**Ədəb.12:** səh.155-181. |
| **10** | QİYMƏTLİ KAĞIZLARIN DƏYƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ | 1 MUBS 33"Səhm üzrə mənfəət" –in açıqlanması<br><br>2. MUBS 33"Səhm üzrə əsas mənfəət"-in hesablanması qaydaları | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>(İAS) 19;<br>**Ədəb.8:**<br>Fəsil 20;<br>**Ədəb.10:** səh.197-233:<br>**Ədəb.13:** səh.271-337 |

| | | | |
|---|---|---|---|
| | | 3. İmtiyazli səhmlərin satışı zamanı güzəştlər<br><br>4.Adi səhmlərin dəyərinin müəyyən edilməsi | |
| **11** | QİYMƏTLİ KAĞIZLARIN EMİSSİYASI | **1.**Kapitallaşdırma əsasında səhmlərin buraxılması **.**<br><br>**2.** Adi səhmlərin konvertasiyası<br><br>3.Səhmlər üzrə hesabat tarixindən sonra baş verən dəyişikliklər | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 7:**<br>**(**İAS) 7, (İFRS 16);<br>**Ədəb.8:**<br>Fəsil 22;<br>**Ədəb 9:**<br>Bölmə D., Fəsil-D 02, D 08;<br>**Ədəb.10:** səh.443-467;<br>**Ədəb11:**<br>Fəsil-6;<br>**Ədəb.12:** səh.219-240;<br>**Ədəb.13:** səh.145-147. |
| **12** | PUL VƏSAİTLƏRİNİN TƏHLİLİ VƏ MALİYYƏ PLANLAŞMASI | 12.1.İqtisadi qərarlar qəbul edən istifadəçilər üçün pul axınlarının hərəkəti haqqında informasiyanın əhəmiyyəti;<br>12.2. Pul vəsaitləri və onların ekvivalentləri haqqında anlayış;<br>12.3.Təşkilatın pul axınlarının təsnifatı: Əməliyyat, İnvestisiya və Maliyyə fəaliyyətindən pul axınları;<br>12.4. Əməliyyat fəaliyyətindən pul axınlarının təqdim edilməsi metodları;<br>12.5. İnvestisiya və maliyyə fəaliyyətindən pul axınlarının təqdim edilməsi metodu;<br>12.6. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın hazırlanması;<br>12.7. Əməliyyat, investisiya və maliyyə fəaliyyətinin ayrı-ayrı növlərindən yaranan pul axınlarının netto əsasda təqdim edilməsi;<br>12.8. Pul vəsaitlərinin hərəkəti haqqında hesabatın informasiyasının təhlili və qiymətləndirilməsi;<br>12.9. Maliyyə hesabatında | **Ədəb.3;**<br>**Ədəb.4;**<br>**Ədəb. 6:**<br>Fəsil 8;<br>**Ədəb.8:**<br>Fəsil 4;<br>**Ədəb 9:**<br>Bölmə D., Fəsil-D 10;<br>**Ədəb.11:**<br>Fəsil 5;<br>**Ədəb.12:** səh.219-240;<br>**Ədəb.13:** səh.543-545. |

| | | | |
|---|---|---|---|
| | | informasiyanın açıqlanması. | |
| | **Yekun imtahan** | | |

**XII. Praktiki məşğələlər**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

UNEC-də bakalavriat və magistratura səviyyələrində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran **cari və aralıq qiymətləndirmə** (toplam 100 bal) əsasında həyata keçirilir.

**Cari qiymətləndirmə üzrə 50 bal** bakalavr və magistrantların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal fənlərin tədris növünə uyğun olaraq aşağıdakı qaydada formalaşır:

- tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında;

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((b1+b2+b3+...+bn)/s)*m)/10

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Bakalavr və magistrantlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır.

Seminar dərsində ümumiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.
***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.
Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.
Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

- Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmur.

**XIV. Fənn üzrə sərbəst iş**

Fənn üzrə sərbəst iş nəzərdə tutulmur.

**XV. Fənn üzrə qiymətləndirmə**

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Ara qiymətləndirmə əsasında | 30 | 30 % |
| Aktivlik balı | 20 | 20% |
| **Cəmi:** | **100** | **100 %** |

Semestr müddətində 1 kollokvium keçirilir.

Kollokviumda iştirak etmədiyi halda tələbəyə jurnalda "0" yasılır.

Tələbə 50 balı imtahanda yığır.

***Qeyd:***

Tələbə imtahanda 17 bal yığmış olduqda, onun imtahana qədər yığmış olduğu ballar ləğv edilir.

Fənn üzrə semestr ərzində (imtahana qədərvə imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

91-100 bal - "əla" – **A**

81-90 bal - "çox yaxşı" – **B**

71-80 bal - "yaxşı" – **C**

61-70 bal - "kafi" – **D**

51-60 bal - "qənaətbəxş" – **E**

51 baldan aşağı - "qeyri-kafi" – **F**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Mənbələr:**

Sillabusun məzmunu və strukturu ilə bağlı təklif olunan bu sənədin hazırlanması zamanı aşağıdakı mənbələrdən istifadə olunmuşdur:


**The Londom School of Economics (LSE)**
http://www.lse.ac.uk/resources/calendar/courseGuides/MG/2018_MG411.htm?from_serp=1

**Harvard Business School**
https://www.hbs.edu/about/Pages/default.aspx

**Stanford University**
https://teachingcommons.stanford.edu/resources/course-preparation-resources/creating-syllabus

**Yale University**
http://www.econ.yale.edu/~pah29/409web/syllabus.htm

**University of Toronto**
https://teaching.utoronto.ca/teaching-support/course-design/developing-a-syllabus/

**University of Washington**
http://www.washington.edu/teaching/teaching-resources/preparing-to-teach/designing-your-course-and-syllabus/#Syllabus

**New York University: Leonard N. Stern School of Business**
http://w4.stern.nyu.edu/economics/docs/Syllabi/Sp16/Dubra/Dubra_FirmsMarkets_Spring2016.pdf

**Rochester Institute of Technology**
https://www.rit.edu/academicaffairs/tls/course-design/syllabus-design/developing-your-syllabus

**Washington University in St/Louis**
https://teachingcenter.wustl.edu/resources/course-design/syllabus-template/

**İndiana University**
https://citl.indiana.edu/teaching-resources/course-design/syllabus-construction/

**The Chronicle of Higher Education**
https://www.chronicle.com/interactives/advice-syllabus#components